


**Səlim BABULLAOĞLU**

*Azərbaycan Yazıçılar Birliyinin katibi*


**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sayəsində bəlalar dolu tariximizin gerisayımı başladı**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin doğum günü, 60 illik yubileyidir. Və bu ərəfədə Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarın təklifi ilə cənab Prezident birliyimizin fəxri üzvü seçildi. Bu, olduqca təqdirəlayiqdir. Anar müəllim çıxışında ölkə başçısının mədəniyyət, sənət, xüsusən ədəbiyyat, kitab mühitinin inkişafı üçün atdığı addımlar, verdiyi töhfələr, əvəzsiz dəstəklər barədə danışdı, məsələn, kitabların latın qrafikasına keçidi, latın qrafikalı kitabların hazırlanması və cənab Prezidentin yeni nəşrlərə böyük dəstəyini xatırlatdı. Bir məqamı da mən xatırlatmaq istərdim. 14 il əvvəl cənab Prezidentin 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası"nın nəşri ilə bağlı Sərəncamı vardı və bu işin gerçəkləşməsi üçün böyük vəsait ayırmışdı ölkə başçısı. Mən bu haqda 2011-ci ildə tərcümə məsələləri ilə bağlı məruzəmdə yazmışdım. Yazmışdım ki, təkcə məruzənin əhatə etdiyi dövrün deyil, ümumiyyətlə müstəqillik illəri tariximizin ən əhəmiyyətli mədəniyyət və ədəbiyyat olayıdır bu sərəncam. "Klassik dünya ədəbiyyatı", "Müasir dünya ədəbiyyatı", "Nobel mükafatına layiq görülmüş müəlliflərin əsərləri" və "Dünya ədəbiyyatı üzrə antologiyalar" başlıqları altında sıralanırdı həmin seriyadakı kitablar. Bu, bir tərəfdən, o vaxtadək mövcud olan tərcümələrin yeni redaktədə nəşri, başqa tərəfdən, yeni tərcümələrin ortaya çıxması demək idi. Təbii ki, bu həm də böyük tərcüməçi, redaktor, naşir ordusunun, bir sözlə, mütəxəssislərin dövlət himayəsi altında əlverişli şərtlərlə çoxdan gözlədikləri fəaliyyətlə məşğul olmaq imkanıydı. O vaxt mən dövlət başçımıza bu sərəncama görə tərcüməçilər ordusu adından təşəkkür etməyi borc bilmişdim həmin məruzədə. Bu illər ərzində o təşəkkürlər sırası əslində hər gün artdı. Çünki cənab Prezident bu illər ərzindəki bütün fəaliyyəti boyu ədəbiyyatımıza və mədəniyyətimizə xüsusi qayğı ilə yanaşdı. Ardıcıl şəkildə. Azad olunmuş torpaqlarımızda dalbadal iki mədəniyyət tədbirinin keçirilməsi, Vaqifin məqbərəsinin ucaldılması bunun ən bənzərsiz nümunəsi idi Biz hamımız bunun şahidi olduq.

Bilirsiniz, zamanı tarix edən hadisələrdir. Hətta bəzən həmin hadisələrə görə əsrlərə, yüzilliklərə ad verirlər. Hesab edirəm ölkəmizin həyatında, son 15 ildə elə hadisələr baş verdi ki, həmin hadisələr bəlkə də əsrin qarşıdakı 80 ilini müəyyən edib, adlandırıb, növbəti on illər üçün istiqamətləri müəyyənləşdirib. Zəfərlə bitən 44 günlük Vətən müharibəsi, II Qarabağ savaşı həmin hadisələrin, bu dövrün kulminasiya nöqtəsi olub, həm də 200 illik bəlalar dolu tariximizin gerisayımının başlanması deməkdi. Bəli, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sayəsində bəlalar dolu tariximizin gerisayımı başladı. Odur ki, ölkə başçısını 60 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, görülən bütün böyük işlərə görə ona dərin və səmimi minnətdarlıq hisslərimi çatdırmaq istəyirəm...


**Ədəbiyyat qəzeti.- 25 dekabr.- 2021- ci il.- S. 4.**